# Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Allah tərəfindən göndərilən Adam

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: E. Frischbutter; Sarah S., Alastair Paterson

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Bir gün Allahın məbədində Zəkəriyyə adlı yaşlı bir kahin buxur yandırırdı. İnsanlar bayırda dua edirdilər. Qəflətən Zəkəriyyə təlaşa düşdü.



Mələk gəlmişdi.  Ona dedi: “Qorxma”.

“Məni Allah göndərib.  Sənin arvadının oğlu olacaq.



Onun adını Yəhya qoy. O ana bətnində olanda Müqəddəs Ruhla dolacaq. O, bir çox insanları Allaha tərəf döndərəcək”.



“Zəkəriyyə, bizimlə danış”. Bayırdakı adamlar çaşqınlıq içində idilər. Onlar Cəbrayıl mələyin Zəkəriyyənin körpə doğulana qədər danışa bilməy- Əcəyini dediyini bilmirdilər.



Çünki o, Allahın müjdəsinə inanmamışdı. O fikirləşirdi ki, onun arvadı övlad dünyaya gətirmək üçün çox yaşlıdır.



Evdə Zəkəriyyə mələyin dediklərinin hamısını yazdı. Onun arvadı Elizavet heyrətləndi. Onlar həmişə övladlarının olması üçün dua etmişdilər. Bu indi baş verə bilərdimi?





Tezliklə Elizavet körpəsinin olacağını bildi. O, Allahı mədh etdi. Bir gün Elizavetin qohumu Məryəm ona baş çəkdi. Məryəmin də bətnində körpəsi var idi.

Məryəm gəlib çatanda Elizavet bətnindəki körpənin tərpəndiyini hiss etdi. Elizavet Müqəddəs Ruhla doldu.



O bildi ki, Məryəmin körpəsi Rəbb İsa Məsih olacaq. Hər iki qadın birlikdə sevinclə Allaha alqış oxudular.

Elizavetin körpəsi Allahın vəd etdiyi kimi doğuldu. “Onun adını atası kimi Zəkəriyyə qoyun”, digər kahinlər dedilər. Zəkəriyyə Allahın əmrini xatırlayırdı.





“Xeyr!  Körpənin adı Yəhya olacaq”.  Zəkəriyyə bu sözləri yazanda onun dili açıldı.  Sonra o, Allaha alqış etdi.

Yəhya böyüyüb boya-başa çatanda o,
Allah adamı olan İlyasa
oxşadı. Yəhya insanlara
Məsihin tezliklə onlara
xeyir-dua vermək üçün
gələcəyini deyirdi.




Yəhudi rəhbərləri Yəhyaya nifrət edirdilər. Çünki o, onlara “Tövbə edin!  Günah etməyin!” deyirdi.  Onlar öz günahları haqqında eşitmək istəmirdilər.

Digərləri onu Vəftizçi Yəhya adlandırırdılar, çünki o, insanları öz günahlarına görə peşman olduqlarını göstərməyin rəmzi olan suya batıraraq vəftiz edirdi.



Bir gün İsa vəftiz olmaq üçün Yəhyanın yanına gəldi. “Sən məni vəftiz etməlisən”, Yəhya etiraz etdi. Lakin İsa dedi: “Qoy belə olsun”. Yəhya Onu vəftiz etdi.



İsanın vəftizindən sonra Yəhya Müqəddəs Ruhun göyərçin şəklində İsanın üzərinə endiyini gördü.  Bu, Allahın əlaməti idi.



Yəhya bildi ki, İsa Allahın Oğludur.  Yəhya İsanı dünyanın günahını aradan qaldıran Allahın Quzusu adlandırdı.



Yəhya bir çox insanı Allaha tərəf gətirdi. Lakin zalım padşah Hirod



Yəhyanı zindana atdı. “Qardaşının arvadı Hirodiyanı özünə arvad almağın günahdır”, Yəhya Hiroda dedi. Hirod bunun həqiqət olduğunu bilirdi.

O, Yəhyanın Allahın xidmətçisi, ədalətli və saleh adam olduğunu bilirdi. Lakin o, günahdan əl çəkmək istəmirdi. Yəhya isə, bunun onun üçün zindana atılmaq demək olduğuna baxmayaraq, günaha qarşı təbliğ etməyə davam edirdi.



Hirod öz ad günündə böyük bir ziyafət verdi.  Hirodiyanın qızı onun üçün rəqs etdi.  Bu, Hirodun xoşuna gəldi.



“Sən nə istəsən sənə verəcəyəm”, o and içdi. “Hətta padşahlığımın yarısını belə”.





"Mən nə istəyə bilərəm?" qız fikirləşdi. Onun Yəhyaya nifrət edən pis anası Hirodiya qızına nə istəyəcəyini dedi! Bu, dəhşətli idi!

Qız Hiroda dedi: “Vəftizçi Yəhyanın başını burada bir sini içində mənə verin”. O, öz vədinə görə peşman oldu, lakin bunu pozmaq artıq gec idi. Hirod əmr etdi: “Yəhyanın başını kəsin və buraya gətirin”. Onun əsgərləri ona itaət etdilər.



Yəhyanın dostları kədər içində Allahın cəsur və sadiq xidmətçisinin bədənini dəfn etdilər. İndi Yəhyanın Allah üçün işi bitdi. Yəqin onlar bilirdilər ki, İsa onların kədərində onlara təsəlli verə bilər.



# Allah tərəfindən göndərilən Adam

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Mark 6, Luka 1, 3

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**